# SUMQAYIT İQTİDAR-MÜXALİFƏT VƏ BAŞQA SİYASİ QRUPLAŞMALAR ARASINDA GEDƏN MÜBARİZƏ DÖVRÜNDƏ
**(oktyabr 1991 – iyun 1993-cü illər)**

**H.A.ALIYEV**
*Sumqayıt Dövlət Universiteti*
*hamid.aliyev@mail.ru*

*Məqalədə Azərbaycan müstəqillik əldə etdikdən sonra respublikada baş verən hadisələr nəzərdən keçirilir və oxuculara ermənilərin vəhşi maxinasiyaları haqqında həqiqət çatdırılır. XX əsrin 90-cı illərinin əvvəlində keçmiş Sovetlər Birliyinin milli respublikalarında yüksələn milli azadlıq hərəkatı sovet amirlik rejimini sarsıtdı. Sumqayıt hadisələrindən sonra azğınlaşan ermənilər Qarabağda və respublikanın digər sərhədyanı bölgələrində hərbi əməliyyatları daha da genişləndirmişdilər.*

XX əsrin 90-cı illərinin əvvəlində keçmiş Sovetlər Birliyinin milli respublikalarında yüksələn milli azadlıq hərəkatı sovet amirlik rejimini sarsıtdı. SSRİ-nin dağılması və Sov. İKP-nin rəhbər və hakim rolunun iflası nəticəsində o, ictimai-siyasi, sosial-iqtisadi və mədəni sahədə idarəçilik nüfuzunu itirməyə başladı. Marksist-leninçi təlimi və doktrinası ləğv edildi. Bu dövrdə tələsik qəbul edilmiş bir sıra qərarlar və tədbirlər, o cümlədən bədnam yenidənqurma siyasəti belə, bu çoxmillətli dövləti labüd iflasdan xilas edə bilmədi. Sovet imperiyasının bütün milli regionlarında olduğu kimi 90-cı illərin əvvəllərində Azərbaycan Respublikası da yeni tarixi mərhələyə qədəm qoydu. 1991-ci ilin oktyabrın 18-də Azərbaycan Respublikası Milli Məclisində müstəqillik haqqında bəyannamə qəbul edildi. Bununla da, əsrlər boyu uğrunda mübarizə apardığı, bu yolda minlərlə şəhidlər verdiyi Azərbaycan milli müstəqilliyə nail oldu, onu möhkəmləndirmək və tarixi reallığa çevirmək üçün yeni müstəqil demokratik dövlət quruculuğuna başlamaq imkanı yarandı. Lakin o zaman ölkədə ayrı-ayrı qrupların, müxtəlif siyasi partiyaların ambisiyaları və hakimiyyət uğrunda kəskinləşən mübarizəsi nəticəsində Azərbaycanın parçalanması, ölkədə vətəndaş müharibəsinin başlanması təhlükəsi yaranmışdı. Respublikanın o zamankı rəhbərliyi baş verən hadisələrə nəzarət edə bilmir, xalqın ən ümdə və ali məqsədi olan onun təşkilatçısı olmaqdan uzaq idilər, onun gündəlik problemlərinin həllinə və müstəqil respublikanı yaranmış ağır vəziyyətdən çıxarmaq iqtidarında deyildilər.

Sumqayıt hadisələrindən sonra azğınlaşan ermənilər Qarabağda və respublikanın digər sərhədyanı bölgələrində hərbi əməliyyatları daha da genişləndirmişdilər. 1991-ci ilin noyabrın 18-də Qarabağın Xocavənd kəndi erməni qəsbkarları tərəfindən yerlə-yeksan edilərək kənd əhalisini öldürüb, qadın, qız və gəlinləri girov götürmüşdülər. Noyabrın 20-də respublikanın bir qrup vəzifəli şəxsləri: baş nazirin müavini

Zülfü Hacıyev, Azərbaycan Respublikasının Dövlət katibi, akad. Tofiq İsmayılov, Azərbaycan Prezidentinin Milli-Təhlükəsizlik məsələləri üzrə müşaviri, Daxili İşlər naziri, daxili xidmət general-mayoru Məhəmməd Əsədov, Azərbaycan Respublikasının Baş Prokuroru daxili xidmət general-mayoru İsmət Qayıbov, 26 Bakı komissarı rayon partiya komitəsinin birinci katibi Vəli Məmmədov və b. məsələni yerində araşdırmaq üçün baş nazirin müavini Zülfi Hacıyevin başçılığı altında «Mİ-8» hərbi-vertolyotu ilə Ağdamdan Qarabağın Xocavənd kəndinə yola düşmüş və Qarakənd yaxınlığında qəzaya uğramışdı və bütün heyət faciəli surətdə həlak olmuşdu. Heyətin tərkibində həyatlarının müəyyən dövrü Sumqayıtla bağlı olmuş, baş nazirin müavini Zülfü Hacıyev, Azərbaycan Respublika Prezidentinin müavini, Daxili İşlər naziri Məhəmməd Əsədov, Azərbaycan Respublikasının Baş Prokuroru İsmət Qayıbov da vardı [7, 210].

Dağlıq Qarabağın və respublikanın sərhədyanı bölgələrində Vətən torpaqlarının azad edilməsi uğrunda müharibədə 1989-cu ilin fevralın 26-dan 1994-cü ilin avqustun 5-nə kimi 378 nəfər sumqayıtlı şəhid olmuş [9, 35-36], şəhərin Dənizkənarı Nəsimi adına parkında və Şəhidlər Xiyabanında dəfn edilmişlər. Onlardan 2 nəfəri Səfərov Cəlil Əziz oğlu və Quliyev Kamran Mətləb oğlu [9, 40] Azərbaycan Respublikasının Milli Qəhrəmanı adına layiq görülmüşlər.

Sumqayıt Şəhər 3 və 10 saylı orta məktəblərinin kollektivlərinin müracətini nəzərə alan Şəhər XDS Rəyasət Heyəti 10 saylı orta məktəbə Cəmil Səfərovun və 3 saylı orta məktəbə Mətləb Quliyevin adını verməklə həmin məktəblərin həyətində onların büstlərinin qoyulmasını qərara almışdı [1, v. 1-7].

Şəhər XDS Rəyasət Heyətinin 1991-ci il 3 dekabr tarixli iclasının qərarı ilə 1 saylı tikinti idarəsinə, 17 saylı orta ümumtəhsil məktəbinə Z.S.Hacıyevin adı verilməsi, onun Sumqayıtda yaşadığı evə xatirə lövhəsi vurulması, Babək küçəsinin onun adı ilə adlandırılması qərara alınmışdı [2, v. 4].

M.N.Əsədovun Vətən qarşısında xidmətləri nəzərə alınaraq şəhərin 17 və 18 mikrorayonları arasındakı küçəyə (Niyazi küçəsindən M.F.Axundov küçəsinədək olan hissə), 20 saylı orta ümumtəhsil məktəbinə onun adı verilmiş və Sumqayıtda yaşadığı binada xatirə lövhəsi asılmışdı.

İ.İ.Qayıbovun Vətən qarşısında xidmətləri nəzərə alınaraq 17 və 18-ci mikrorayonlar arasındakı küçəyə (Niyazi küçəsindən Axundov küçəsinədək olan hissə) küçəyə və 1 saylı orta ümumtəhsil məktəbinə onun adı verilmiş, işlədiyi şəhər prokurorluğu binasına xatirə lövhəsi vurulması qərara alınmışdı.

Şəhər XDS Rəyasət Heyətinin 1992-ci il 17 yanvar tarixli iclasının qərarı ilə 1991-ci il noyabrın 20-də Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında «Mİ-8» hərbi vertolyotunun qəzaya uğraması (partladılması) nəticəsində həlak olmuş Azərbaycan Respublikasının dövlət katibi görkəmli alim, akad. Tofiq Kazım oğlu İsmayılovun Vətən qarşısında xidmətlərini nəzərə alaraq şəhərin 29 saylı orta ümumtəhsil məktəbinə onun adının verilməsi və məktəbdə xatirə lövhəsi vurulmasını qərara almışdı [2, v. 4].

Sumqayıt polis şöbəsinin əməkdaşları da yuxarı Qarabağda torpaqlarımızın müdafiəsi uğrunda döyüşlərdə fəal iştirak etmişdilər və Vətən torpaqları uğrunda şəhid olanlar içərisində şəhərin polis işçiləri də vardı.

Sumqayıt şəhər XDS-nin Rəyasət Heyətinin 29 yanvar 1993-cü il iclasında Dağlıq Qarabağda və respublikanın sərhədyanı rayonlarında erməni millətçilərinə

qarşı döyüşlərdə şəhid və əlil olanların ailələrinə köməklik göstərilməsinin vəziyyəti haqqında şəhərin sənaye müəssisələri, idarə və təşkilatları tərəfindən müəyyən işlər gördüyü qeyd olunurdu. Müqəddəs torpaq uğrunda döyüşlərdə şəhid olmuş 115 sumqayıtlıdan yuxarıda qeyd etdiyimiz kimi, iki nəfər Milli Qəhrəman adına layiq görülmüşdü [3, v. 12, 13, 19].

Sumqayıt şəhər XDS Rəyasət Heyətinin 28 avqust 1992-ci il tarixli iclasının qərarı ilə Dağlıq Qarabağ və digər sərhədyanı rayonlarının ərazilərinin təcavüzkar erməni millətçilərindən təmizlənməsində, həmin torpaqların azad edilməsində Sumqayıt övladlarının da əməyi az olmamışdı. 1970-80-cı illərdə Əfqanıstanda döyüş təcrübəsi qazanmış Sumqayıtın qəhrəman övladları – 1980-cı ilin sonu – 90-cı illərin əvvəllərində torpaqlarımızın müdafiəsinə qalxmış Rəhman Sadıq oğlu Qəhrəmanov, Oqtay Namaz oğlu Bayramov, Eldar Elmar oğlu Süleymanov başqalarına örnək olan qəhrəmanlıqlar göstərmiş və torpaqlarımızın erməni işğalçılarından müdafiəsi uğrunda şəhid olmuşlar. Onların xatirəsini və adlarını əbədiləşdirmək məqsədilə Şəhər Soveti idarə, müəssisə və küçə adlarının verilməsi və dəyişdirilməsi üzrə komissiyanın təklifini nəzərə alaraq R.S.Qəhrəmanovun yaşadığı binada xatirə lövhəsi vurulmuşdu. 17-ci mikrorayondakı 61 saylı, O.N.Bayramovun yaşadığı 9-cu mikrorayondakı 11 A/12 saylı, E.E.Süleymanovun yaşadığı 12-ci mikrorayonun 32 saylı, C.Q.Cabbarovun yaşadığı 17-ci mikrorayondakı 21 saylı evlərə xatirə lövhəsi vurulması qərara alınmış və 17 məhəllənin keçmiş Piteşti küçəsinə Sumqayıtın ilk şəhidi Rəhman Qəhrəmanovun adının verilməsi qərara alınmışdı [4, v. 10-11].

Respublikada yaranmış ağır sosial-iqtisadi vəziyyət, Dağlıq Qarabağ və sərhədyanı bölgələrdə erməni işğalçılarına qarşı onların elan olunmamış müharibəsindən istifadə edən, o zaman hələ də xalqın müəyyən hissəsini öz ətrafına toplayan qüvvələr 1992-ci il mayın 15-də Qarabağ və digər bölgələrdən hərbi qüvvələri cəbhə xəttindən çıxarıb Bakıya gətirməklə siyasi hakimiyyəti ələ keçirdilər. Lakin elə ilk aylardan onların dövləti idarə və sosial problemləri həll etmək iqtidarında olmadıqları xalqa aydın oldu. Tarixin bu məsuliyyətli dövründə respublikada hakimiyyətə gələn Azərbaycan Xalq Cəbhəsi ölkəyə və xalqa rəhbərlik edə bilmədi. Onun başçıları siyasi naşılıq göstərərək hakimiyyəti bölüşdürmək barədə iqtidarla sövdələşməyə başladılar və qısa müddətdə xalq içərisində nüfuzlarını itirdilər. AXC liderlərinin qeyri-ardıcıl mövqeyini görən xalq onlardan uzaqlaşmağa başladı. Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi, AXC qısa bir müddətdə özünü Azərbaycan ziyalılarının əsas kütləsindən təcrid etdi, düzgün elmi təhlil, siyasi proqnoz əsasında ümummilli platforma yaratmaq əvəzinə populist çıxışlara üstünlük verdi… Xalq tez başa düşdü ki, onun ən ülvi, ən müqəddəs, ən pak hissləri siyasi alverə, siyasi rəqabətə, kiminsə ucuz siyasi ambisiyalarının gerçəkləşməsinə xidmət edir. Qısa müddətdə Xalq Cəbhəsi üzvlərinin sayı 3 dəfəyə qədər azaldı [6, 26].

Azərbaycan Respublikasının digər bölgələrindən fərqli olaraq Sumqayıtın respublikanın paytaxtı Bakı şəhərinə yaxınlığı, onların sosial-iqtisadi baxımdan oxşarlığı, əhalisinin etnik və milli tərkibi etibarilə bənzərliyi, nəhayət, Bakı və Sumqayıt sənaye, energetika və kimya sənayesi müəssisələri arasında yaxınlıq, ictimai-siyasi cəhətdən hər iki şəhərin əhalisinin baş verən hadisələrə münasibəti, xüsusən 1988-ci il 27-29 fevral hadisələrindən sonra Sumqayıtda ictimai-siyasi gərginliyin artması, keçmiş iqtidarın daxili və xarici siyasətindən narazı olanların sayının sürətlə yüksəlməsi, onların siyasi baxışları və baş verən hadisələrə münasibəti tədricən dəyişilməyə

başlamışdı. Mərkəz, Azərbaycanda milli azadlıq hərəkatının genişlənməsindən qorxuya düşərək, Bakıda 20 Yanvar qanlı faciəsini həyata keçirdi. Yanvar faciəsi respublikanın bütün regionlarında olduğu kimi, Sumqayıt şəhərində də əks-səda doğurdu. Sumqayıt əhalisi içərisində yerli hakimiyyətdən narazı olan qüvvələrin çıxışları Sumqayıtda iqtidar-müxalifət qarşıdurması ilə nəticələndi. Sumqayıt İcra Hakimiyyəti başçısı vəzifəsinə Yusif Sevdimalıyev təyin edildi. Şəhərin sənaye müəssisələrinin istehsal fəaliyyəti pozulmağa, cəbhəçilərin şəhər əhalisinin sosial qayğıları və problemlərinə olan laqeyd münasibəti şəhərdə hakimiyyət uğrunda kəskin xarakter alan çəkişmələr, təsərrüfat pozğunluğu burada cinayətkar qrupların və ünsürlərin fəallaşmasına səbəb olmuşdu.

SSRİ dağıldığı ərəfədə Sumqayıtda sonuncu şəhər partiya komitəsinin birinci katibi və ilk İcra Hakimiyyəti başçısı Eldar İsmayılov, AXC hakimiyyəti dövründə Yusif Sevdimalıyev, 1993-1999-cu illərdə Şakir Abuşov, 1999-2003-cü ilin aprelin 2-nə kimi Təvəkkül Məmmədov olmuş, 2003-cü ilin aprelin 3-dən bu günə qədər Şəhər İcra Hakimiyyəti başçısı Vaqif Əliyevdir [8, 1].

90-cı illərdə Şəhər İcra Hakimiyyəti başçıları ilə yanaşı, Sumqayıtın sənaye müəssisələrinin və iqtisadiyyatının inkişafında yaxından iştirak etmiş İcra Hakimiyyəti başçısının müavinləri olmuş Əli Həsənov, Xıdır Aloyev, Akif Zeynalov, Azərkimya Şirkətinin prezidenti Fikrət Sadıqov və b. xidməti də qeyd edilməlidir.

SSRİ dağıldıqdan sonra şəhərin Sovetlər Birliyinin digər iri sənaye regionları və şəhərləri ilə iqtisadi əlaqələrin pozulması nəticəsində Sumqayıtın sənaye kompleksində tənəzzül yaranmış, nəqliyyatın bütün sahələrində depresiya prosesi güclənmiş, iri sənaye müəssisələrinin əksəriyyəti dayanmışdı. Belə ki, əgər 1952-ci ildə Boru-yayma zavodu kimi işə salınmış və 10 mindən artıq adamın çalışdığı bu müəssisədə istehsal tamamilə dayanmış, onun mühəndis-texniki işçilərinə və fəhlələrinə 10 milyard manat əmək haqqı şəklində borcu yaranmışdı [5, 3]. Bundan əlavə, enerji daşıyıcılarına görə ödənilən məbləğ də nəzərə alınarsa, müəssisənin ümumi borcu 22 mln. rubla bərabər idi [5, 3]. Burada istehsalın iflic vəziyyətinə düşməsi kollektivin dağılmasına və istehsalın intensivliyinin pozulması halları ilə nəticələnmişdi. 1990-cı ilin əvvəlində zavodda cəmi 600 nəfər işləyirdi. 1991-ci ilin sonunda müəssisənin mühəndis-texniki işçilərinin və fəhlələrin maddi vəziyyətinin və mənəvi həyat tərzinin acınacaqlı vəziyyətə düşməsi üzündən onun hər 100 nəfər işçisindən 94 nəfəri «Azərboru» zavodunu tərk etmək məcburiyyətində qalmışlar. Şəhərin digər sənaye müəssisələrində bu cür vəziyyətin hökm sürməsi Sumqayıt sənaye müəssisələrində işsizliyin kütləvi hal almasına səbəb olmuşdu.

Belə bir vaxtda xalq bütün ümidini görkəmli dövlət xadimi və böyük siyasətçi, qeyrətli oğlu Heydər Əliyevə bağlamışdı. Respublikada böyük nüfuz və hörmətə malik olan Heydər Əliyevdən ehtiyat edən Moskva və onun Bakıda, rəhbərlikdə olan əlaltıları Heydər Əliyevi böyük siyasətdən uzaqlaşdırmaq üçün müxtəlif vasitələrə əl atır, dəridən-qabıqdan çıxırdılar.

## ƏDƏBİYYAT


1. ARMD ASF, fond 159, siy. 2, iş 25. 12.09-03.12.1991.
2. ARMD ASF, fond 159, siy. 2, iş 27. 17.01.1992.
3. ARMD ASF, fond 159, siy. 2, iş 52. 29.01.1993.
4. ARMD ASF, fond 159, siy. 2, iş 39, qovluq 1. 28.08.1992.
5. «Azərbaycan» qəz., 1994, 24 noyabr.

6. Əliyev. H.Ə. Müstəqilliyimiz əbədidir. Bakı: Azərnəşr, 2005, 528 s.
7. Əhmədov Q., Vəziroğlu B. Sumqayıt və sumqayıtlılar. Bakı: Sumqayıt, 1999, 445 s.
8. «Sumqayıt» qəz., 2003, 9 aprel.
9. Садыгов Г.Ш., Мамедов Р.С. Армяне в Сумгаите. I книга. Историко-социологический очерк (1938-1994 гг.), Баку: Шур, 152 с.

## СУМГАИТ В ПЕРИОД РАЗНОГЛАСИЙ МЕЖДУ ПРАВЯЩЕЙ ВЛАСТЬЮ И ОППОЗИЦИЕЙ И ДРУГИМИ ПОЛИТИЧЕСКИМИ ГРУППИРОВКАМИ (октябрь 1991 – июнь 1993 годов)

**Г.А.АЛЫЕВ**

### РЕЗЮМЕ

Усиливающееся национальное движение в республиках бывшего Советского Союза в 90-х годах XX века расшатало могущество советского режима. После Сумгаитских событий озверевшие армяне еще более расширили военные операции в Карабахе и других приграничных районах. Автор данной статьи рассматривает события, происходившие в Азербайджане после приобретения независимости вплоть до июня 1993 года и пытается донести читателям правду о зверских махинациях армян при поддержке России.

## SUMGAIT DURING THE DISSONANCE BETWEEN THE AUTHORİTY - OPPOSITION AND OTHER POLITIC GROUPS (october 1991 – june 1993)

**Q.A.ALIYEV**

### SUMMARY

The advanced national movement in the republics of former Soviet Union in the 90s of the XX century weakened the power of the soviet regime. After Sumgait events violent Armenians expanded their military operations in Garabakh and other border regions. The author analyzes the events in Azerbaijan after gaining independence till June 1993 and tries to elucidate the truth about the tricks of Armenians with Russia's support.